**Sevdimov H.G.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.106-112**
**UOT: 340.12**

# Dələduzluq əməlində niyyətin müəyyən edilməsi meyarlarından biri kimi məlumatvermə öhdəliyinin əhəmiyyəti

**Xülasə:** Məqalədə dələduzluq cinayətinin mülki hüquq münasibətlərindən fərqləndirilməsi problemi və xüsusilə niyyətin müəyyən edilməsində məlumat vermə öhdəliyinin rolu araşdırılmışdır. Müasir hüquq tətbiqetmə təcrübəsində müqavilə münasibətlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməməsi halları ilə dələduzluq cinayəti arasındakı sərhədin müəyyən edilməsi ciddi çətinliklər yaradır. Bunun əsas səbəbi isə cinayətin subyektiv tərəfi olan niyyətin birbaşa deyil, yalnız dolayı sübutlar vasitəsilə müəyyən edilməsidir.Tədqiqat göstərir ki, mövcud Azərbaycan qanunvericiliyində niyyətin müəyyən edilməsi üçün konkret meyarların kifayət qədər dəqiq təsbit olunmaması hüquq tətbiqetmədə qeyri-müəyyənliyə səbəb olur. Bu baxımdan Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarında göstərilən ümumi istiqamətləndirici hallar praktiki əhəmiyyət kəsb etsə də, onlar niyyətin müəyyən edilməsi üçün yetərli normativ baza yaratmır.

Məqalədə müqayisəli hüquqi təhlil aparılaraq Almaniya, Türkiyə və İngiltərə hüquq sistemlərində məlumat vermə öhdəliyinin dələduzluq cinayətinin müəyyən edilməsində mühüm meyar kimi çıxış etdiyi göstərilmişdir. Xüsusilə, müəyyən hallarda susma yolu ilə aldatmanın yalnız hüquqi məlumat vermə öhdəliyi mövcud olduqda cinayət məsuliyyəti yaratdığı vurğulanmışdır.Araşdırma nəticəsində müəyyən edilmişdir ki, qarşı tərəfin qərarına təsir edən mühüm məlumatların – maliyyə vəziyyəti, müqavilənin icra imkanları, vəsaitin təyinatı, risk faktorları və hüquqi məhdudiyyətlər – gizlədilməsi hallarında davranış artıq passiv susma deyil, aldatma kimi qiymətləndirilməlidir. Bu yanaşma niyyətin müəyyən edilməsində obyektiv meyarların formalaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, dələduzluq cinayətinin düzgün kvalifikasiyası üçün qanunvericilikdə məlumat vermə öhdəliyinin konkretləşdirilməsi və açıqlanmalı məlumat kateqoriyalarının müəyyən edilməsi zəruridir. Bu, həm hüquq tətbiqetmədə subyektiv yanaşmaların qarşısını alacaq, həm də mülki hüquq pozuntusu ilə cinayət məsuliyyəti arasındakı sərhədi daha aydın şəkildə müəyyən etməyə imkan verəcəkdir.

**Açar sözlər:** dələduzluq cinayəti; niyyət (subyektiv tərəf); məlumat vermə öhdəliyi; müqavilə münasibətləri; mülki-hüquqi mübahisə; aldatma; susma yolu ilə aldatma; maliyyə məlumatlarının açıqlanması; müqayisəli hüquq; hüquqi kvalifikasiya meyarları.

Müasir hüquq tətbiqetmə təcrübəsində mürəkkəb məsələlərdən biri mülki hüquq münasibətlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməməsi halları ilə dələduzluq cinayətinin fərqləndirilməsidir. Təcrübədə heç də az təsadüf edilməyən kriminal əməllə mülki-hüquqi xarakterli

♦ **Sevdimov Həzrət Gülhüseyn oğlu -** Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Dövlət və hüquq nəzəriyyəsi kafedrasının müəllimi, polis leytenantı. Email: s-hezret@mail.ru

əməllərin qarışdırılması, xüsusilə müqavilə münasibətlərində tərəflərdən birinin öhdəliyi yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi bəzən cinayət hüquqi məsuliyyətin tətbiqinə, bəzən isə aldatmanın və yaxud etibardan sui-istifadə etmənin mövcudluğu barədə nəticənin yalnız obyektiv halların müəyyən edilmiş olması ilə əlaqədləndirilməsi, beləliklə də şəxsin əslində müstəsna olaraq onun özünə bəlli ola bilən subyektiv əlamətə (məsələn, o, obyektiv hallar üzrə zərərçəkmiş şəxsi yanıltmadığı, o cümlədən bu və ya digər məzmunlu müqavilə bağladığı vəziyyətdən əmlakın, əmlaka olan hüquqların verilməsinədək onda həmin əmlakı əvəzsiz olaraq ələ keçirmək niyyətinin olmasına) görə CM-in 178-ci maddəsi ilə məsuliyyətə cəlb edilməsinin istisna edilməsi kimi neqativ halların qarşısının alınması üçün qanunvericilikdə niyyətin müəyyən edilməsinin konkret meyarları təsbit etməlidir [1].

Cinayət hüququnda niyyət şəxsin törətdiyi əmələ və onun nəticələrinə psixi münasibətini ifadə edən subyektiv əlamətdir.Cinayət hüququ nəzəriyyəsində qəbul edilir ki, dələduzluq cinayətinin mövcudluğu üçün şəxsin özgə əmlakını və ya əmlaka olan hüquqları əvəzsiz olaraq ələ keçirmək niyyəti əmlakın verilməsindən əvvəl və ya ən gec həmin anda mövcud olmalıdır. Hüquq tətbiqetmə təcrübəsində isə, niyyət insanın daxili psixoloji münasibəti olduğuna görə onu birbaşa müəyyən etmək mümkün deyil. Bu səbəbdən niyyətin mövcudluğu yalnız dolayı sübutların və konkret faktiki halların təhlili əsasında müəyyən edilir.Mövcud cinayət qanunvericiliyində şəxsin razılaşmadan öncə özgə əmlakını (əmlaka olan hüquqlarını) əvəzsiz olaraq ələkeçirmək niyyətinin olmasını müəyyən etməyə imkan verən və hüquq mühafizə orqanlarının istinad edə biləcəyikonkret meyarların təsbit edilməməsi əməlin cinayət yoxsa mülki hüquq pozuntusu kimi qiymətləndirilməsini çətinləşdirir.

“Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” 2015-ci il 11 iyun tarixli 7 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında qeyd edilən“şəxsin əmlakın ona verilməsi ilə bağlı öhdəlikləri yerinə yetirmək üçün əvvəlcədən real maliyyə imkanlarının, yaxud əmlakın idarə edilməsi üçün onun icazəsinin olmaması, əmlakı (əmlaka olan hüququ) əldə edərkən saxta sənədlərdən istifadə etməsi, əqdin bağlanması zamanı tərəflərdən biri kimi çıxış edən yalançı müəssisələr yaratması onun özgə əmlakının talanmasına yönəlmiş niyyətinin olmasına dəlalət edən hallar kimi çıxış edə bilər [3]. Lakin bu halların da mövcud olması birmənalı olaraq şəxsin dələduzluq cinayətini törətməsi barədə nəticəyə gəlmək üçün əsas vermir və hər bir konkret işin hallarına əsaslanaraq təqsirkarın üzərinə götürdüyü öhdəlilkləri yerinə yetirmək niyyətində olmaması müəyyən edilməlidir. Məhkəmələrin diqqəti dələduzluq cinayətinin həm mülkiyyət əleyhinə olan, həm də müəyyən əlamətlərinə görə dələduzluğa oxşar digər cinayətlərdən, habelə mülki münasibətlərdən irəli gələn mübahisələrdən fərqləndirilməsinin zəruriliyinə yönəlsin. Qanuna müvafiq qaydada kredit, borc, girov, alqı-satqı və bu kimi başqa mülki münasibətlərdən irəli gələn müqavilə bağlandıqdan sonra şəxs digər şəxsin müqavilənin şərtlərinə zidd olan hərəkətləri nəticəsində əmlakından və ya əmlaka olan hüququndan məhrum olduqda və həmin əmlakın qaytarılması (əmlaka olan hüququnun bərpa edilməsi) iddiası ilə mülki mühakimə icraatı qaydasında məhkəməyə müraciət etdikdə, məhkəmə bu xarakterli iddialara mülki-prosessual qanunvericiliyinin tələblərinə uyğun qaydada baxmalı, bu baxış zamanı əmlakı ələ keçirmiş və ya əmlak hüququnu əldə etmiş şəxsin əməllərində talama, o cümlədən dələduzluq cinayətinin əlamətlərinin olmasını müəyyən etdikdə isə, Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 265.4-cü maddəsinin tələblərinə müvafiq olaraq bu haqda xüsusi qərardad çıxarmaqla prokurora xəbər verməlidir.” bu kimi müddəalar təcrübi olaraq ümumi oriyentasiyanı özündə əks etdirsədə niyyətin müəyyənləşdirilməsi üçün konkret meyarları təsbit etmir. Son zamanlar təcrübədə tez-tez rast

gəlinən hallardan biri kimi tərəflər arasında biznes fəaliyyəti ilə bağlı razılaşmalar çərçivəsində əmlakın verilməsi və sonradan bu "biznesin" gözlənilən nəticəni verməməsi ilə bağlı yaranan mübahisələrdir [2]. Belə hallarda bir tərəf digərinə müəyyən iqtisadi fəaliyyətlə məşğul olmaq və qarşılıqlı qazanc əldə etmək məqsədilə pul vəsaiti təqdim edir, lakin sonradan həmin fəaliyyət uğursuzluqla nəticələnir və vəsaiti təqdim edən şəxs qarşı tərəfin onu aldatdığını iddia edir.Bu tip münasibətlərdə diqqət çəkən məqamlardan biri ondan ibarətdir ki, vəsaiti təqdim edən tərəf bir çox hallarda fəaliyyətin konkret şərtləri, maliyyə vəziyyəti, risklər və digər mühüm hallar barədə kifayət qədər araşdırma aparmır və qərarını əsasən qarşı tərəfin təqdim etdiyi ümumi məlumatlara və qazanc vədinə əsaslanaraq verir. Digər tərəfdən, vəsaiti qəbul edən şəxs əldə etdiyi pul vəsaitini müxtəlif istiqamətlər üzrə əmlakın tam və ya qismənmövcud öhdəliklərin icrasına,planlaşdırılan biznes fəaliyyətinin təşkili ilə bağlı digər xərclərə sərf edə bilir. Gözlənilən və ya vəd edilən iqtisadi nəticə əldə edilmədikdə hüquqi kvalifikasiya ilə bağlı nəzəri və təcrübi problemlər yaranmış olur.Bu halda hüquq tətbiqetmədə plürallığın aradan qaldırılması üçün cinayətin subyektiv tərəfinin əsas elementi olan niyyətin məzmunu və onun müəyyən edilmə meyarları qanunverici tərəfindən konkretləşdirilməsi mütləqdir. Əqdin bağlanması zamanı tərəflərdən biri kimi çıxış edən yalançı müəssisələr yaradılması, saxta sənədlərdən istifadə edilməsi halları ilə yanaşı müqayisəli hüquqi təhlil göstərir ki, inkişaf etmiş hüquq sistemlərində məlumat vermə öhdəliyi də dələduzluq cinayətinin müəyyən edilməsində əsas meyarlardan biri kimi çıxış edir. Alman hüququnda dələduzluq yalnız aktiv aldatma ilə deyil, müəyyən hallarda susmaqla da törədilə bilər, lakin bu yalnız şəxsin qarşı tərəfə məlumat vermək üzrə hüquqi öhdəliyinin mövcud olduğu hallarda mümkündür.Bu yanaşma xüsusilə müqavilə münasibətlərində tərəflər arasında informasiya balanssızlığının aradan qaldırılması və aldatma elementinin müəyyənləşdirilməsi baxımından mühüm meyar kimi çıxış edir.

Türk hüququnda bu məsələyə ən aydın nümunələrdən biri Türk Ticaret Kanunu m.1435 normasıdır. Həmin maddəyə əsasən, sığorta etdirən şəxs müqavilə bağlanarkən bildiyi və ya bilməli olduğu bütün mühüm halları sığortaçıya açıqlamaqla yükümlüdür. Bu öhdəliyin pozulması, yəni əhəmiyyətli məlumatların gizlədilməsi və ya natamam təqdim edilməsi, təkcə mülki-hüquqi nəticələr doğurmur, eyni zamanda konkret hallarda cinayət-hüquqi qiymətləndirməyə də səbəb ola bilər. Burada diqqət çəkən məqam ondan ibarətdir ki, qanunverici artıq əvvəlcədən hansı məlumatların açıqlanmalı olduğunu müəyyən etməklə tərəfin susmasının belə aldatma kimi qiymətləndirilməsinə hüquqi zəmin yaradır [4; 5].

Alman hüququnda Strafgesetzbuch §264-də bu öhdəlik daha sərt şəkildə ifadə olunmuş və subsidiya münasibətlərində məlumatın gizlədilməsi birbaşa cinayət tərkibi kimi nəzərdə tutulmuşdur. Bu isə göstərir ki, qanunverici müəyyən sahələrdə məlumat vermə öhdəliyini konkretləşdirərək niyyətin sübutunu asanlaşdırmağa çalışır.İngiltərə hüququnda da analoji yanaşma mövcuddur [6].

Fraud Act 2006 section 3 norması birbaşa "məlumatı açıqlamamaq yolu ilə dələduzluq" anlayışını təsbit etmişdir. Həmin maddəyə görə, şəxs hüquqi öhdəliyi olduğu halda məlumatı açıqlamır və bununla qarşı tərəfi zərərə uğradırsa, bu hal müstəqil şəkildə dələduzluq cinayəti kimi qiymətləndirilir [7]. Burada da əsas şərt məhz hüquqi öhdəliyin mövcudluğudur; yəni hər susma deyil, yalnız açıqlama borcunun olduğu hallarda susma cinayət məsuliyyəti yaradır. Azərbaycan hüquq sistemində isə məlumat vermə öhdəliyi daha çox mülki hüquq çərçivəsində, xüsusilə dürüstlük və vicdanlı davranış prinsipləri kontekstində nəzərdə tutulur. Lakin bu öhdəliyin cinayət

hüququ baxımından konkret və sistemli şəkildə müəyyən edilməməsi praktikada ciddi çətinliklər yaradır.

Nəticədə, şəxsin müəyyən məlumatları gizlətməsi hallarında bu davranışın mülki hüquq pozuntusu, yoxsa dələduzluq cinayəti kimi qiymətləndirilməsi çox vaxt subyektiv yanaşmadan asılı olur. Bu yanaşmalar ümumiləşdirildikdə belə nəticəyə gəlmək mümkündür ki,məlumat vermə öhdəliyinin predmetinə maliyyə vəziyyəti ilə bağlı mühüm məlumatlar, xüsusilə,şəxsin öhdəliyin icrasına təsir edən maliyyə vəziyyəti barədə məlumatlar-mövcud borclar (xüsusilə icraatda olan və ya ödənilməmiş öhdəliklər),ödəmə qabiliyyətinə təsir edən hallar (müflislik riski, aktivlərin çatışmazlığı),götürülən öhdəliyin icrası üçün real maliyyə imkanlarının olmaması açıqlanmalı məlumatlar kimi qiymətləndirilir; müqavilənin predmetinə və icrasına təsir edən hallar-fəaliyyət üçün tələb olunan icazə və lisenziyaların olmaması,biznes modelin obyektiv olaraq mümkünsüz və ya yüksək riskli olmasıqarşı tərəfə açıqlanmalı mühüm hallardan biri hesab olunur; əldə edilən vəsaitin təyinatı ilə bağlı məlumatlar-vəsaitin istifadə istiqaməti barədə yanlış və ya natamam məlumat vermək,vəsaitin tam və ya qismən başqa məqsədlərə yönəldiləcəyi,əvvəlcədən mövcud öhdəliklərin ödənilməsinə sərf ediləcəyi, vəsaitin nəzərdə tutulan fəaliyyətə tam yönəldilməyəcəyi, mühüm və açıqlanmalı məlumatlar sırasına daxildir;risk faktorları və qeyri-müəyyənliklərlə bağlı-gözlənilən gəlirin təmin olunmaması ehtimalı,bazar və fəaliyyətlə bağlı əhəmiyyətli risklər,əvvəlcədən məlum olan neqativ hallar kimi qarşı tərəfin qərarına təsir edə biləcək risklər gizlədilə bilməz;hüquqi və faktiki məhdudiyyətlərlə bağlı - hüquqi və faktiki məhdudiyyətlər, üçüncü şəxslərlə mövcud olan və icraya təsir edən öhdəliklər, əmlak və ya hüquqlar üzərində məhdudiyyətlərqarşı tərəfə açıqlanmalı hallardır.Göstərilən məlumat kateqoriyalarının ümumi xüsusiyyəti ondan ibarətdir ki, onlar qarşı tərəfin qərarına birbaşa təsir göstərir və onun iradəsinin formalaşmasında həlledici rol oynayır. Müqayisəli hüquq göstərir ki, məhz bu cür məlumatların gizlədilməsi hallarında susma artıq passiv davranış kimi deyil, aldatmanın xüsusi forması kimi qiymətləndirilir.

Beləliklə, dələduzluq cinayətində niyyətin müəyyən edilməsi üçün qanunvericilikdə yalnız ümumi prinsiplərin deyil, həm də bu kimi konkret məlumat kateqoriyalarının təsbit edilməsi zəruridir. Bu yanaşma hüquq tətbiqetmədə subyektiv qiymətləndirmələrin qarşısını almaqla yanaşı, mülki hüquq pozuntusu ilə cinayət məsuliyyəti arasındakı sərhədlərin daha aydın müəyyən edilməsinə və şəxsin müqavilə bağlanması anındakı həqiqi niyyətinin obyektiv meyarlar əsasında qiymətləndirilməsinə xidmət edəcəkdir.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi; 3 mart 2026-cı il tarixinə edilmiş əlavə və dəyişikliklərlə. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi; 3 mart 2026-cı il tarixinə edilmiş əlavə və dəyişikliklərlə. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46944

3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 11 iyun 2015-ci il tarixli, 7 nömrəli Qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/55425

4. Türk Ceza Kanunu [Elektron resurs]. URL: https://www.mevzuat.gov.tr

5. Türk Ticaret Kanunu [Elektron resurs]. URL: https://www.mevzuat.gov.tr

6. Strafgesetzbuch (StGB – Almaniya Cinayət Məcəlləsi) [Elektron resurs]. URL: https://www.gesetze-im-internet.de/stgb/

7. Fraud Act 2006 (Birləşmiş Krallıq) [Elektron resurs]. URL: https://www.legislation.gov.uk/ukpga/2006/35

8. Durmuş Tezcan; Mustafa Ruhan Erdem; R. Murat Önok. Teorik ve Pratik Ceza Özel Hukuku. Ankara: Seçkin Yayıncılık, 2019.

9. Nur Centel; Hamide Zafer; Özlem Çakmut.Kişilere Karşı İşlenen Suçlar. İstanbul: Beta Yayıncılık, 2017.

10. Faruk Erem.Dolandırıcılık. Ankara Üniversitesi Hukuk Fakültesi Yayınları, 1956.

11. Zeynel Kangal.“Dolandırıcılık”, Özel Ceza Hukuku. İstanbul, 2018.

***Məqalə daxil olmuşdur:*** *06 mart 2026-cı il*
***Çapa qəbul edilmişdir:*** *17 mart 2026-ci il*

**Sevdimov H.G.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.106-112**
**UDC: 340.12**

## The significance of the duty to disclose as a criterion for determining intent in the act of fraud

**Abstract:** This article examines the problem of distinguishing fraud from breaches of contractual obligations arising from civil law relations, with a particular focus on the role of the duty to disclose in determining intent. In modern legal practice, it is often difficult to draw a clear line between non-performance of contractual obligations and criminal fraud. This difficulty mainly stems from the fact that intent, as the subjective element of the offence, cannot be established directly and must be inferred from indirect evidence and factual circumstances. The study demonstrates that the lack of clearly defined legal criteria for determining intent in the existing Azerbaijani legislation leads to inconsistencies in legal practice. Although the guiding principles set out in the Plenum decisions of the Supreme Court of the Republic of Azerbaijan provide general orientation, they do not constitute sufficiently precise standards for identifying fraudulent intent. Through a comparative legal analysis of German, Turkish, and English legal systems, the article highlights that the duty to disclose information plays a crucial role in determining fraud. In particular, it is emphasized that omission (silence) may amount to deception only where there exists a legal duty to disclose. The research further identifies that the concealment of essential information influencing the decision-making of the other party such as financial status, feasibility of contractual performance, intended use of funds, risk factors, and legal constraints—should be considered deception rather than mere passive conduct. This approach contributes to the development of more objective criteria for determining intent.

[♦] **Sevdimov Hezret Gulhuseyn oglu -** Lecturer of the Department of State and Law Theory of the Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, police lieutenant. Email: s-hezret@mail.ru

In conclusion, the article argues for the necessity of explicitly regulating the duty to disclose and specifying categories of information that must be disclosed within the legal framework. Such an approach would reduce subjective interpretations in legal practice, clarify the boundary between civil liability and criminal responsibility, and enable a more objective assessment of the offender's intent at the time of concluding the contract.

**Keywords:** fraud; intent (subjective element); duty to disclose information; contractual relations; civil dispute; deception; deception by omission; disclosure of financial information; comparative law; legal qualification criteria.

## References

1. Criminal Code of the Republic of Azerbaijan; with amendments and additions as of March 3, 2026. Available at: https://e-qanun.az/framework/46947 (in Azerbaijani).

2. Civil Code of the Republic of Azerbaijan; with amendments and additions as of March 3, 2026. Available at: https://e-qanun.az/framework/46944 (in Azerbaijani).

3. Resolution No. 7 of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan "On judicial practice in cases of fraud crimes" dated June 11, 2015. Available at: https://e-qanun.az/framework/55425 (in Azerbajian).

4. Turkish Penal Code. Available at: https://www.mevzuat.gov.tr (in Turkish).

5. Turkish Commercial Code Available at: https://www.mevzuat.gov.tr (in Turkish).

6. Strafgesetzbuch (StGB – German Criminal Code). Available at: https://www.gesetze-im-internet.de/stgb/ (in German).

7. Fraud Act 2006 (United Kingdom). Available at: https://www.legislation.gov.uk/ ukpga/2006/35

8. Durmus Tezcan; Mustafa Ruhan Erdem; R. Murat Onok. Theoretical and Practical Special Penal Law. Ankara: Select Publishing House, 2019 (in Turkish).

9. Nur Gentel; Hamide Zafer; Ozlem Chakmut. Crimes against men. Istanbul: Beta Yayıncılık, 2017 (in Turkish).

10. Faruk Erem. Fraud. Ankara University Faculty of Law Publications, 1956 (in Turkish).

11. Zeynel Kangal. "Fraud", Special Criminal Law. Istanbul, 2018 (in Turkish).

***The article was submitted:*** *2026 March 06*
***Accepted for publication:*** *2026 March 17*

**Севдимов Х.Г.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.106-112**
**УДК: 340.12**

## Значение обязанности по раскрытию информации как одного из критериев установления умысла при совершении мошенничества

**Аннотация:** Рассматривается проблема разграничения мошенничества и гражданско-правовых отношений, с особым акцентом на роль обязанности по раскрытию информации при установлении умысла. В современной правоприменительной практике возникают существенные трудности при определении границы между неисполнением договорных обязательств и преступлением мошенничества. Основная причина заключается в том, что умысел, являющийся субъективной стороной преступления, не может быть установлен напрямую и определяется лишь на основе косвенных доказательств.

Исследование показывает, что отсутствие чётко закреплённых критериев определения умысла в действующем законодательстве Азербайджанской Республики приводит к правовой неопределённости. Несмотря на практическое значение разъяснений, содержащихся в постановлениях Пленума Верховного Суда Азербайджанской Республики, они не формируют достаточную нормативную базу для установления умысла.

Проведён сравнительно-правовой анализ, в результате которого установлено, что в правовых системах Германии, Турции и Англии обязанность по раскрытию информации выступает важным критерием при квалификации мошенничества. В частности, подчёркивается, что обман путём умолчания влечёт уголовную ответственность лишь при наличии юридической обязанности раскрытия информации. В ходе исследования выявлено, что сокрытие существенной информации, влияющей на решение другой стороны — финансового положения, возможности исполнения договора, целевого назначения средств, факторов риска и правовых ограничений — должно рассматриваться не как пассивное молчание, а как форма обмана. Данный подход способствует формированию объективных критериев установления умысла.

В заключение отмечается, что для правильной квалификации мошенничества необходимо конкретизировать обязанность по раскрытию информации в законодательстве и определить категории подлежащих раскрытию сведений. Это позволит снизить субъективизм в правоприменительной практике и более чётко разграничить гражданско-правовые нарушения и уголовную ответственность.

**Ключевые слова:** мошенничество; умысел (субъективная сторона); обязанность по раскрытию информации; договорные отношения; гражданско-правовой спор; обман; обман путем умолчания; раскрытие финансовой информации; сравнительное право; критерии юридической квалификации.

***Дата поступления:*** *06 марта 2026 г.*
***Дата принятия в печать:*** *17 марта 2026 г.*

---

♦ **Севдимов Хезрет Гюльгусейн -** преподаватель кафедры теории государства и права Академии полиции Министерства внутренних дел Азербайджанской Республики, лейтенант полиции. E-mail: s-hezret@mail.ru